# BİR ALİM ÖMRÜNÜN İŞIĞI



*Telman Bədəlbəyli-Ağdamski*
*Professor, kimya elmləri doktoru, Əməkdar müəllim, Y.Məmmədəliyev və Ü.Hacıbəyli adına medalların laureatı*

**Həyat insanlarla, hadisələrlə diqqətçəkən, yaddaqalan olur. Yəni boşluq heç vaxt ürək açmadığı kimi, səhra heç vaxt özünün tufanıyla, qasırğasıyla könül oxşamadığı kimi, cəmiyyət də, bütövlükdə insan həyatı da hadisəsiz, özəlliklərsiz, xüsusilə cəlbedici məqamlarsız heç kimin könlünü oxşamır, heç kimə xoş gəlmir. Sadəcə olaraq, bu, karvandakı düzümdə hansısa bir nöqtəni xatırlada, ya da xatırlatmaya...**

Bütün bunları söz xatirinə, gəlişigözəl olsun deyə yazmıram. Ona görə ki, barəsində söhbət açdığım insanı uzun illərdir ki, tanıyıram. Birgə fəaliyyətimiz dövründə onun həm xanım özünəməxsusluğunu, həm alim dəyanətini, həm də kişi cəsarətini dəfələrlə müşahidə etmişəm. Təsəvvür edin ki, bu xanım sözü yerində deməyi, haqqı müdafiə etməyi bacardığı kimi, eləcə də cəsarətli mükamilələrdən, yəni fikri bölüşməkdən, müzakirə etməkdən də heç vaxt çəkinməyib. Onun ən diqqətçəkən, yəni xarakterik cəhətlərindən biri odur ki, seçdiyi yola, həyatını həsr etdiyi elmi-pedaqoji fəaliyyətə bir an da olsun soyuq münasibət bəsləməyib, ötəri yanaşmayıb. Sanki o, kimya elmi üçün doğulub və bu elmin sıfır nöqtəsindən başlayıb alimlik zirvəsinə qədər keçdiyi ömür yolunu dərsliklərin, elmi diskussiyaların, laboratoriyaların və bir də dünya elminin sahəsinə uyğun yeniliklərin, kəşflərin içərisində keçirib. Ona görə də bu alim xanımı dünyanın aparıcı elmi müəssisələrində də, universitetlərində də hamı tanıyıb və qəbul ediblər.

Barəsində söhbət açdığım həmkarım, görkəmli alim Nailə Allahverdi qızı Verdizadə Bakıda doğulub. Özü də indi 75 illiyi qeyd olunacaq Böyük Vətən Müharibəsinin bitdiyi bir zamanda. Görünür, bu da bir xoş təsadüfdür. Alman faşizmi üzərində qələbənin 75 illiyi qeyd olunduğu günün səhəri Allahverdi kişinin evində körpə səsi eşidildi. Dünyaya Nailə adlı bir xanım gəldi. 1945-ci ilin may ayının 10-u Nailə Verdizadənin doğum tarixi oldu.

Belə bir fikir var ki, hər kəsin doğum tarixində onun alın yazısı da sahibiylə birlikdə həyata qədəm qoyur. Yəni tale, alın yazısı öz sahibini anbaan izləməyə başlayır. Bu da ömrün həm səlnaməsinə, həm də uğurlu sabahına dəstək olur. Və beləcə, Nailə xanımın alın yazısı onu əlindən tutub Bakının qocaman məktəblərindən olan 36 nömrəli təhsil ocağına gətirir. Buradan başlayır onun ilk addımları. O da bütün yaşıdları kimi ağır müharibənin sıxıntılarında keçib bərkiyir, məqsədinə, amalına doğru can atır. Orta məktəbi uğurla bitirən Nailə xanım sənədlərini o vaxtkı Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) kimya fakültəsinə verir. Və 1967-ci ildə bu təhsil ocağını fərqlənmə diplomu ilə bitirən Nailə xanım Elmi Şuranın qərarı ilə universitetdə saxlanılır. Bax, elə bu qərardan da Azərbaycanda gənc bir xanım alimin ömrünün yeni səhifəsi başlayır. Öncə oxuduğu ali məktəbdə assisenti, sonra isə baş müəllimi olur.




**İllər keçir, Nailə Verdizadə öz sahəsi üzrə gənc mütəxəssis kimi yetişməyə başlayır. Çünki o, özünün idealı seçdiyi xanım professorların, tanınmış elm xadimlərimiz Zəhra Şaxtaxtinskaya, Roza Qafarova və digərlərindən nümunə götürmək, onlara istinad edib özünün elmi fəaliyyətini daha da genişləndirmək yolunu tutmuşdu. Bu yolda da heç bir çətinlikdən çəkinməmiş, yuxusuz gecələrin, sınaq meydanı olan laboratoriyaların sıxıntılarından usanmamışdı.**

Məhz bu məqsədli, qətiyyətli addımlar da bir alim xanımın yeni-yeni uğurlarına rəvac vermişdi. Belə ki, özünün bitirdiyi ali məktəbdə assisent kimi fəaliyyətə başlayan Nailə Verdizadə çox qısa bir zamanda dosent, sonra isə daha böyük elmi rütbə olan professor titulunu qazandı. Bu da onun elmə həsr etdiyi ömrünün mükafatı, bəhrəsi idi. Çünki Nailə xanım seçdiyi kimya elminə həyatını həsr etməkdən çəkinmirdi.

Üstəlik, bu alim xanım rəhbərlik etdiyi kafedrada da, fakültədə də, universitetdə də özünün həmkarlarına, pedaqoji kollektivə, xüsusilə tələbələrə diqqəti, sayğısıyla seçilibdi. O, hər bir tələbənin, hər bir gənc əməkdaşın fəaliyyəti ilə, problemləri ilə maraqlanıb, bacardığı qədər onlara yardımçı olmağa çalışıb.



**Mən 1972-1981-ci illərdə universitetin kimya fakültəsinin dekanı vəzifəsində çalışdığım zaman Nailə xanımın həm rəhbər, həm alim, həm də müəllim keyfiyyətlərinin yüksək səviyyədə olduğunu müşahidə etmişəm. Onun bir pedaqoq kimi müsbət cəhətlərini ifadə etmək heç də asan deyil. Ona görə ki, bu alim xanım hər kəsin "dilini" bilir, hər kəsin yanında olmağı bacarırdı. Elə kafedra müdiri olanda da o, öz örnək olmaq qabiliyyətini dəfələrlə sübut etdi. Məhz bu səbəbdəndir ki, Nailə Verdizadə təkcə universitet daxilində deyil, eləcə də Təhsil Nazirliyi səviyyəsində də diqqət mərkəzində olub və bu gün də həmin diqqəti öz üzərində saxlamağı bacarır.**

Xatırlatmaq yerinə düşər ki, respublikanın aparıcı elmi müəssisələrindən olan BDU-da Nailə Verdizadə 20 ilə yaxındır ki, dissertasiya şurasının üzvüdür.

O həmçinin Təhsil Nazirliyinin Doktorant və gənc tədqiqatçılar, tələbə-elmi konfransları və olimpiadaların təşkilat komitələrinə rəhbərlik etmişdir. Bu gün də onun rəhbərliyi altında gənclərin elmi biliklərinin üzə çıxarılması istiqamətində böyük işlər görülür. Yeri gəlmişkən, onu da qeyd edim ki, Nailə xanım 1981-ci ildə respublikanın "Əməkdar müəllimi" adına layiq görülmüş pedaqoqlarımızdan biridir. Qeyd edək ki, o, 400-dən artıq əsərin, 40-dan artıq dərslik və metodik vəsaitin, eləcə də 13 proqramın müəllifidir. Onun elmi uğurları Rusiyanın, Gürcüstanın, eləcə də digər yaxın və uzaq ölkələrin aparıcı elmi müəssisələrində, institutlarında öyrənilmiş və tətbiq edilmişdir. Sevindirici haldır ki, azərbaycanlı alimin dünya elminə verdiyi töhfələr maraqla qarşılanmış, həyata vəsiqə qazanmışdı. Bu da bir faktdır ki, Nailə xanımın elmi uğurları ilə yanaşı, davamçıları da, yetirmələri də bu gün onunla bir cərgədə dayanır. Məhz onun diqqət və qayğısı sayəsində bu gün 8 nəfər elmlər namizədi, bir nəfər elmlər doktoru öz ustadının, öz müəlliminin yolunu davam etdirir, onun yetirməsi kimi fəaliyyət göstərirlər.

Bəli, həyatı elmə, ömrü təhsilə həsr edən Nailə Verdizadə 75 illik zaman kəsiyində özünə şərəfli bir yaşam səlnaməsi yazıb. Onun adı ADPU-nun "Analitik və fiziki kimya" kafedrasının uzun müddət layiqli müdiri kimi yaddaşlara yazılmışdır.

Alimin ixtiraları müxtəlif zavod və müəssisələrdə uğurla tətbiq edilməkdədir. Deməli, bir insanın görə biləcəyi işləri bir xanım öz əməyi ilə gerçəkləşdirməyi bacarıbdı.

Bax, bu da onun özünə güvəninin, həyatını həsr etdiyi peşənin barı, bəhəri deməkdir.

**Yazımın sonunda xatırlatmaq istəyirəm ki, çoxlu sayda mükafatların, fəxri fərmanların, medalların sahibi olan Nailə xanım həm də iki övlad anasıdır. O, hər zaman ADPU-nun fəxr etdiyi bir alim kimi nümunə olub və bu gün də nümunədir. Biz də onun həmkarları olaraq alim bacımızı 75 illiyi münasibətilə təbrik edir, ona can sağlığı və yeni-yeni uğurlar arzu edirik.**

Ədalət.- 2020.- 7 may. S. 6.